Azərbaycan Respublikası
Dövlət Şəhərsalma və Arxitektura
Komitəsi kollegiyasının
09 iyun 2015-ci il tarixli 03 №-li
qərarı ilə təsdiq edilmişdir.

**1. Aşağıdakı bəndlər əlavə edilsin:**

**8.30.1.** Qazlaşdırılan bütün təyinatlı binalarda, aşağıda göstərilən qəza hallarında təhlükəsizliyin təmin edilməsi məqsədilə qaz verilişini dayandıran qurğular və avtomatik sistemlər nəzərdə tutulmalıdır:

qazlaşdırılan yerləşgələrdə yanğın əlamətləri aşkar edildikdə (alov, tüstü, istilik, yanma maddələrin ayrılması) – binanın qaz verilişini dayandıran elektromaqnit qapaqla əlaqələndirilmiş yanğın xəbərvericilərin qazlaşdırılan yerləşgələrdə quraşdırılması. Bu barədə qərar qaz şəbəkəsinin və qaz avadanlığının vəziyyətindən, sifarişçinin tələblərindən asılı olaraq layihə təşkilatı tərəfindən qəbul edilir.

**8.30.2.** Daxili qaz kəmərlərində qazın təzyiqi 0,0025 MPa-dan çox olduğu hallarda qaz işlədən avadanlıq qarşısında qazın optimal yanmasını təmin edən tənzimləyici-sabitləşdiricilər quraşdırılmalıdır.

**8.31.1.** Yeni qazlaşdırılan yaşayış binalarının mənzillərində alovun nəzarətsiz sönməsi baş verəcəyi halda, qazın verilməsini dayandıran təhlükəsizlik avtomatikası ilə təchiz olunmuş qaz cihazlarından istifadə edilməlidir.

**2. 8.40-cı və 8.52-ci bəndlər yeni redaksiyada verilsin:**

**8.40.** Qazlaşdırılan bütün təyinatlı binaların mənzillərində (yerləşgələrində) havanın qazla çirklənmə həddi qaz-hava qarışığının alışmasının minimum həddinin 10% çatdıqda işə düşən siqnal vericiləri quraşdırılmalıdır.

Qazla çirklənmə siqnal qurğusu qaz borusunun mənzilə girişində quraşdırılmış elektromaqnit qapaqla əlaqələndirilməli və qazla çirklənmə siqnalı daxil olduqda qazın verilməsini dayandırmalıdır.

**8.52.** Qaz kəmərlərinin, qaz avadanlığı və cihazlarının, avtomatika və siqnalizasiya vasitələrinin texniki xidməti və təmiri müqavilə əsasında özünün qəza-dispetçer xidməti olan qaz paylayıcı və ya həmin işlərin görülməsinə lisenziyası (xüsusi icazəsi) olan ixtisaslaşdırılmış təşkilatlar tərəfindən həyata keçirilməlidir.